**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**KOLLEGİYA QƏRARI**

**29 avqust 2013-cü il** **№ 8-N**

# "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə[1]

"Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na uyğun olaraq "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndinə əsasən Kollegiya[2]

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).

3. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2013-cü il 29 avqust tarixli 8-N nömrəli Qərarı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament[3]

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi

**1.2. Elektron xidmətin məzmunu:** Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbi və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın elektron qaydada verilməsi qaydalarını müəyyən edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

- "İnformasiya əldə etmək haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun 6-cı və 10-cu maddələri;

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin 16-cı bəndi;

- Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.19-cu bəndi;

- "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci hissəsi;[4]

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 19 may tarixli 92 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fərdi identifikasiya nömrəsinin verilməsi Qaydası"nın 2-ci bəndi;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 aprel tarixli 49 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fərdi məlumatların informasiya sistemlərinə fərdi identifikasiya nömrəsinin daxil edilməsi və istifadə olunması Qaydaları"nın 1.4-cü bəndi;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 3.14-cü bəndi.[5]

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** Xidmətin icra müddəti istifadəçi tərəfindən tələb olunan məlumatların informasiya sistemində emalı müddətindən asılıdır.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** İstifadəçi fərdi identifikasiya nömrəsi barədə məlumatı əldə edir.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

**2.3. Elektron xidmətin istifadəçiləri:** fiziki şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://www.e-gov.az**;** http://exidmet.justice.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

**İnternet ünvanı:** http://www.e-gov.az ; http://www.justice.gov.az

**Elektron poçt:** contact@justice.gov.az ; notvva@justice.go.az

**Telefon:** (+99412) 430 09 77 / (+99412) 404 42 81

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Elektron xidmətdən istifadə etmək bu reqlamentin 3.2-ci bəndində göstərilənlərdən asılı olaraq *Azərbaycan Respublikasının vətəndaşlarından şəxsiyyət vəsiqəsinin, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə və ya qaçqın vəsiqələrinin (bundan sonra - şəxsiyyəti təsdiq edən sənəd)* seriya və nömrəsi tələb olunur.[6]

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.** İnteraktiv növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

**3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:** İstifadəçi sistemə daxil olaraq *şəxsiyyəti təsdiq edən sənədin* seriya və nömrəsini, *şəxsiyyəti təsdiq edən sənəd* olmadıqda isə ad, soyad, ata adı və doğum tarixi barədə məlumatları daxil edərək fərdi identifikasiya nömrəsini əldə edir.[7]

**3.2.1. Sorğunun formalaşdırılması:** İstifadəçi tərəfindən elektron xidmətin təqdim edildiyi internet ünvanlarının müvafiq pəncərəsində *şəxsiyyəti təsdiq edən sənədin* seriya və nömrəsini, *şəxsiyyəti təsdiq edən sənəd* olmadıqda isə ad, soyad, ata adı və doğum tarixi barədə məlumatlar daxil edilərək həmin elektron ünvana təqdim edilir;

**3.2.2. Sorğunun qəbulu:** Sorğu internet səhifəsinə daxil olduğu gün qeydiyyata alınır.

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:** Sorğu qəbul olunduğu təqdirdə istifadəçinin monitorunda onu maraqlandıran məlumat təqdim olunur.

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** İstifadəçi tərəfindən təqdim olunmuş sənəddə çatışmazlıqlar (ad, soyad, ata adı, doğum tarixi, eləcə də *şəxsiyyəti təsdiq edən sənədin* seriya və nömrəsi səhv daxil edildikdə) aşkar edildikdə sorğunun yerinə yetirilməsindən imtina edilir.

Elektron xidmətin göstərilməsindən imtina istifadəçinin Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə

məlumatın verilməsi üçün elektron xidmətlər bölməsinə yenidən müraciət etməsinə mane olmur.

**3.3.2. Sorğunun qəbulu:** İstifadəçi tərəfindən təqdim edilmiş sənədlər bu reqlamentin 3.2.1-ci yarımbəndində göstərilənlərə uyğun olduqda sorğu qəbul olunur.

**3.4. Sorğunun icrası:** İstifadəçi elektron xidmət vasitəsilə fərdi identifikasiya nömrəsini əldə edə bilər.

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

- İstifadəçinin tələb olunan məlumatları daxil etməsi;

- Axtarışın həyata keçirilməsi.

İnzibati əməliyyatın həyata keçirilməsinə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti (bundan sonra - Xidmət) məsuliyyət daşıyır.

**3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və ya maksimal yerinə yetirilmə müddəti:**

İstifadəçi müvafiq informasiya sisteminə *şəxsiyyəti təsdiq edən sənəd*in seriya və nömrəsini, *şəxsiyyəti təsdiq edən sənəd* olmadıqda ad, soyad, ata adı və doğum tarixi barədə məlumatları daxil edib axtarış düyməsini vurmaqla "Fərdi identifikasiya nömrəsi" adlanan xüsusi elektron cədvəldə axtarış həyata keçirilir. Axtarışın parametrlərinə uyğun olaraq prosesin müddəti istifadəçinin tələb olunan məlumatları daxil etməsinə və bunun informasiya sistemində emalına sərf olunan vaxtdan asılıdır.

***3.4.3.* İnzibati əməliyyatda iştirak edən digər *dövlət qurumu* haqqında məlumat:** Yoxdur[8]

**3.4.4. Hər bir inzibati prosedurun nəticəsi:**

İstifadəçi fərdi identifikasiya nömrəsi barədə məlumatı əldə edir.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Xidmət həyata keçirir.

**3.5.1. Nəzarət forması**: Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.5.2. Nəzarət qaydası:** Monitorinq nəticəsində müraciətlərin qəbulu, cavablandırılmasının müddəti və prosesin tamlığı izlənilir, baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** Elektron xidmətin göstərilməsinə görə Xidmət məsuliyyət daşıyır.

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən poçt ünvanına göndərilməlidir. Şikayətdə *şəxsin* adı, atasının adı, soyadı, ünvanı, poçt və ya elektron poçt ünvanı, yaxud işlədiyi yer göstərilməlidir.[9]

**3.6.3. Şikayətin baxılma müddəti:** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı
2. 15 may 2019-cu il tarixli **11-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 may 2019-cu il tarixli **11-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə Qərarın adında və 1-ci hissəsində "**daimi yaşayan**" sözlərindən sonra "**və ya qaçqın statusu almış**" sözləri əlavə edilmişdir.

[2] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə qərarın preambulasında "**Dövlət orqanlarının**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin**" sözləri əlavə edilmişdir.

[3] 15 may 2019-cu il tarixli **11-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in adında, 1.1 və 1.2-ci bəndlərində, 3.3.1-ci yarımbəndinin ikinci abzasında "**daimi yaşayan**" sözlərindən sonra "**və ya qaçqın statusu almış**" sözləri əlavə edilmişdir.

[4] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin beşinci abzasında "**Dövlət orqanlarının**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin**" sözləri əlavə edilmişdir.

[5] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin səkkizinci abzasında "**Mərkəzi icra hakimiyyəti orqanları**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər**" sözləri əlavə edilmişdir.

[6] 15 may 2019-cu il tarixli **11-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 2.6-cı bəndində "**şəxsiyyət vəsiqəsinin**" sözləri "**Azərbaycan Respublikasının vətəndaşlarından şəxsiyyət vəsiqəsinin, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə və ya qaçqın vəsiqələrinin (bundan sonra - şəxsiyyəti təsdiq edən sənəd)**" sözləri ilə əvəz edilmişdir.

[7] 15 may 2019-cu il tarixli **11-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 3.2-ci bəndində, 3.2.1-ci yarımbəndində, 3.3.1-ci yarımbəndin birinci abzasında və 3.4.2-ci yarımbənddə ismin müvafiq hallarında "**şəxsiyyət vəsiqəsi**" sözləri ismin müvafiq hallarında "**şəxsiyyəti təsdiq edən sənəd**" sözləri ilə əvəz edilmişdir.

[8] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan

əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 3.4.3-cü yarımbəndində "**dövlət orqanı**" sözləri "**dövlət qurumu**" sözləri ilə əvəz edilmişdir.

[9] 15 may 2019-cu il tarixli **11-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 3.6.2-ci yarımbəndinin üçüncü cümləsində "**vətəndaşın**" sözü "**şəxsin**" sözü ilə əvəz edilmişdir.